# Tovuz: aqrar sahə inkişaf yolunda

Son dövrlərdə dünya iqtisadiyyatındakı böhran, neftin qiymətinin 3 dəfədən artıq ucuzlaşması Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyib. Respublika Prezidenti cənab İlham Əliyevin düşünülmüş çevik və məqsədyönlü siyasəti nəticəsində iqtisadiyyatımızın neft və qazdan asılılığı aradan qaldırılır. Qeyri-neft sektorunun inkişafı, idxaldan asılılığın aradan qaldırılması, ixrac qabiliyyətini artırmaq, dünya bazarında rəqabətə davamlı məhsulların istehsalı üçün irimiqyaslı təxirəsalınmaz layihələr həyata keçirilir. Dövlət başçısı 2016-cı il I rübün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda qeyd etmişdir ki, I rübdə iqtisadi islahatlar daha sürətlə aparılmışdır. Ümumiyyətlə 2016-cı il dərin islahatlar ili olacaqdır. Kənd təsərrüfatının inkişafının prioritet olmasını vurğulayaraq fermerlərə dəstəyin vacibliyini bildirdi. Ölkədə pambıqçılıq, baramaçılıq, üzümçülük, tütünçülük və çayçılığın inkişaf etdirilməsi iqtisadiyyatın sürətli inkişafını təmin edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından irəli gələn vəzifələr Tovuz rayonunda uğurla həyata keçirilir.

Rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalovun ciddi nəzarəti və tapşırığı ilə rayonda aqrar sahənin inkişafı üçün münbit şərait yaradılır. Tovuzun əlverişli iqlimi, qara torpağı və fermerlərə yaradılan hərtərəfli şərait bunu deməyə əsas verir. Respublikanın kənd təsərrüfatı məhsulları ilə təminatında bu bölgənin özünəməxsus yeri olmuşdur. Hazırda bu ənənə qorunub saxlanır. Rayonda mövcud olan istixanalarda yetişdirilən kənd təsərrüfatı məhsulları daxili bazarı təmin etməklə yanaşı, həm də qonşu ölkələrə ixrac olunur. Dövlət başçısının çıxışında vurğuladığı əsas məqamlardan biri də budur. Hazırda Tovuz rayonunda 847 ha üzüm bağı vardır. O cümlədən 200 hektara yeni tinglər basdırılmışdır. 2017-ci ildə üzüm bağlarını 2 min hektara, 2018-ci ildə isə 3 min hektara çatdırmağı tovuzlu fermerlər qarşılarına məqsəd qoymuşlar.

Hazırda rayonda 9 soyuducu anbar fəaliyyət göstərir. Bu da fermerlərin becərdiyi süfrə üzümünün xarab olmasının qarşısını alır. Tovuz rayonunda texniki sort üzümün emalı üçün 4 emal müəssəsinin təmiri nəzərdə tutulur. Rayonun dağ kəndlərində 20 ha tütün əkini nəzərdə tutulmuşdur. Bunlar Çatax, Qaradaş, Əsrik-Cırdaxan, Böyük Qışlaq, Çeşməli, Həsənli və Ağacqala kəndləridir. Bu istiqamətdə güclü hazırlıq işləri aparılır. Xüsusilə gəlirli sahə sayılan 2 ton barama istehsal etmək nəzərdə tutulur.



Ölkənin kartofla təminatında Tovuz rayonu qabaqcıl sıralarda gedən bölgələrdəndir. Rayonda taxılçılığın inkişafına da xüsusi diqqət yetirilir. Ölkə Prezidenti fevral ayında Tovuza səfəri zamanı bir neçə sosial obyektlərlə bərabər, tutumu 20 milyon kubmetr olan möhtəşəm Tovuzçay su anbarının açılışını etdi. Bu da Tovuzun suvarma suyuna olan tələbatının böyük bir hissəsini təşkil edir. Dövlət başçısının tapşırığına əsasən cari ildə rayon ərazisində tələb olunan 6 ədəd subartezian quyusu qazılıb əhalinin istifadəsinə veriləcəkdir. Mütəxəssislərin proqnozuna görə, havaların iqlim normasına uyğun keçməsi və yağıntının normal miqdarda düşməsi bu il aqrar sahədə yüksək nailiyyətlər əldə ediləcəyindən xəbər verir. Əminliklə qeyd etmək olar ki, Tovuz rayonu daxili imkanları hesabına dotasiyadan asılılığını aradan qaldıracaqdır.

**Vəli VƏLİYEV,**
**"Respublika".**